# Dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2021-2022-ci tədris ili üçün tədris (məşğələ) planının təsdiqi barədə

## Azərbaycan Respublikası təhsil nazirinin əmri

Azərbaycan Respublikasının dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarında tədris prosesinin təşkili və tənzimlənməsini təmin etmək məqsədilə “Azərbaycan Respublikasının Təhsil Nazirliyi haqqında Əsasnamə”nin 8.10-1-ci və 13.5-ci bəndlərini rəhbər tutaraq

**ƏMR EDİRƏM:**

1. Azərbaycan Respublikasının dövlət ümumi təhsil müəssisələrində yaradılan məktəbəhazırlıq qruplarının 2021-2022-ci tədris ili üçün tədris (məşğələ) planı və “Tədris (məşğələ) planına dair qeydlər” təsdiq edilsin (1, 2 və 3 nömrəli əlavələr).
2. İnformasiya və vətəndaşlara xidmət şöbəsi (R.Xanlarov) bu əmrin əlavələrlə birlikdə yerlərə və müvafiq struktur bölmələrə çatdırılmasını təmin etsin.
3. İctimaiyyətlə əlaqələr sektoru (C.Valehov) bu əmrin əlavələrlə birlikdə “Azərbaycan müəllimi” qəzetində dərc olunmasını və Nazirliyin internet səhifəsində yerləşdirilməsini təmin etsin.
4. Əmrin icrasına nəzarəti öz üzərimdə saxlayıram.

**Firudin QURBANOV,**
**Nazir səlahiyyətlərini müvəqqəti icra edən,**
**nazir müavini**

*31 avqust 2021-ci il*